**Azərbaycan Xalq Parlamentinin Rəyasət Heyəti üzvləri arasında vəzifə bölgüsü haqqında**

Azərbaycan Xalq Parlamentinin fəaliyyətinin daha sistemli, koordinasiyalı və institusional əsaslarla həyata keçirilməsi, parlament tipli ictimai-siyasi platforma kimi funksionallığının gücləndirilməsi, sessiyaların, komitələrin və beynəlxalq əlaqələrin səmərəli təşkilinin təmin olunması məqsədilə AzXP Rəyasət Heyəti üzvləri arasında aşağıdakı vəzifə bölgüsü müəyyən edilir:

## 1. Ərəstun Oruclu

Ərəstun Oruclu AzXP-nin siyasi-analitik fəaliyyət istiqamətinə rəhbərlik edir və aşağıdakı vəzifələri həyata keçirir:

- Azərbaycanın daxili siyasi, iqtisadi və sosial həyatında baş verən proseslər, eləcə də ölkənin xarici siyasətindəki əsas istiqamətlər barədə həftəlik analitik və tənqidi icmallar hazırlamaq və sessiyalarda təqdim etmək;
- Zəruri hesab etdiyi hallarda müəyyən mövzular üzrə xüsusi dinləmələrin, ictimai müzakirələrin və ekspert debatlarının keçirilməsini təşəbbüs etmək;
- Dövlət idarəçiliyi, demokratik institutlar, siyasi proseslər və beynəlxalq münasibətlər sahəsində AzXP üçün konseptual təkliflər hazırlamaq;
- AzXP-nin strateji siyasi xəttinin formalaşdırılmasında iştirak etmək;
- Regional və beynəlxalq proseslərin AzXP-nin fəaliyyətinə mümkün təsirlərini qiymətləndirmək və bununla bağlı Rəyasət Heyətini məlumatlandırmaq;
- Tematik siyasi dinləmələrin təşkili ilə bağlı təkliflər vermək;
- Ekspert, analitik və tədqiqatçı şəbəkəsinin formalaşdırılmasına dəstək göstərmək;
- AzXP-nin ictimai-siyasi hesabatlarının və analitik sənədlərinin hazırlanmasının koordinasiyasında iştirak etmək.

## 2. Xatirə Cəbrayılova

Xatirə Cəbrayılova AzXP-nin təşkilati-idarəetmə və parlament daxili koordinasiya istiqamətinə rəhbərlik edir və aşağıdakı vəzifələri yerinə yetirir:

- AzXP sessiyalarının gündəliyi üzrə təkliflər hazırlamaq;
- Sessiya gündəliyinin formalaşdırılması məqsədilə deputatlar, komitələr və Rəyasət Heyəti üzvləri ilə kommunikasiya aparmaq;
- Hazırlanmış gündəlik layihəsini Rəyasət Heyətinin müzakirəsinə təqdim etmək;
- Təsdiq olunmuş gündəliyi deputatların nəzərinə çatdırmaq;
- AzXP sessiyalarında daxili nizam-intizam qaydalarına riayət olunmasına nəzarət etmək;
- Sessiyalarda iştirak intizamını izləmək, davamlı iştirak etməyən deputatlarla əlaqə yaratmaq və zəruri hallarda onların intizam məsuliyyəti məsələsini Rəyasət Heyətinin müzakirəsinə çıxarmaq;

- Sessiyaların təşkilati və prosedur hazırlığını təmin etmək;
- AzXP Mətbuat Xidmətinin və təşkilati aparatının fəaliyyətinin koordinasiyasını həyata keçirmək;
- Sessiya protokollarının, stenogramların və daxili sənədləşmənin təşkilinə nəzarət etmək;
- Deputat korpusu ilə Rəyasət Heyəti arasında daxili kommunikasiya sistemini koordinasiya etmək;
- Daxili etik davranış və prosedur qaydalarına riayət olunmasına nəzarət etmək;
- Rəyasət Heyətinin qərarlarının deputat korpusu arasında icrasının təşkilinə nəzarət etmək.

### 3. Abid Qafarov

Abid Qafarov AzXP-nin beynəlxalq əlaqələr, insan hüquqları və cari fəaliyyətin monitorinqi istiqamətinə rəhbərlik edir və aşağıdakı funksiyaları həyata keçirir:

- AzXP-ni beynəlxalq təşkilatlar, demokratik institutlar və xüsusilə Avropa Şurası ilə əməkdaşlıq məsələlərində RH-nin tapşırıqlarını icra etmək;
- İnsan hüquqları, demokratiya və hüququn aliliyi sahəsində beynəlxalq əlaqələrin inkişafına dəstək vermək;
- İnsan hüquqları pozuntuları və siyasi repressiyalarla bağlı operativ reaksiya mexanizmlərinin təşkilində iştirak etmək;
- Zəruri hallarda fövqəladə siyasi və hüquqi hadisələr üzrə xüsusi dinləmələrin keçirilməsini təşəbbüs etmək;
- Beynəlxalq hesabatların, müraciətlərin və hüquqi-siyasi sənədlərin hazırlanmasının koordinasiyasında iştirak etmək;
- Diaspora təşkilatları və beynəlxalq tərəfdaş şəbəkələri ilə əlaqələrin qurulmasına dəstək vermək;
- AzXP-nin beynəlxalq platformalarda təqdimatı və legitimliyinin gücləndirilməsi istiqamətində fəaliyyət göstərmək.

### 4. Fərid Qəribov

Fərid Qəribov AzXP-nin komitə və komissiyalarla işinin koordinasiyası istiqamətinə rəhbərlik edir və aşağıdakı vəzifələri həyata keçirir:

- AzXP-nin Komitə və Komissiyalarının fəaliyyətinin koordinasiyasını təmin etmək;
- Komitə və Komissiya sədrlərinin Qrupuna rəhbərlik etmək;
- Komitə sədrləri ilə mütəmadi, ən azı həftədə bir dəfə işçi görüşləri keçirmək;
- Rəyasət Heyətinin müəyyən etdiyi prioritet mövzuları və tapşırıqları komitə sədrlərinə çatdırmaq;
- Komitələr ilə Rəyasət Heyəti arasında koordinasiya və kommunikasiya körpüsü funksiyasını həyata keçirmək;

- AzXP sessiyalarında keçiriləcək dinləmələrin və müzakirələrin mövzularını komitə sədrləri ilə razılaşdırmaq;
- Dinləmələr üzrə məruzəçilərin müəyyən edilməsini təşkil etmək;
- Komitələrin fəaliyyətinə dair hesabatları sistemləşdirmək və Rəyasət Heyətinə təqdim etmək;
- Ekspert və vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın inkişafına dəstək vermək;
- Komitələr tərəfindən hazırlanmış sənəd və təkliflərin ilkin koordinasiyasını həyata keçirmək.

## 5. Ataxan Əbilov

AzXP sədri təşkilatın ümumi fəaliyyətinə rəhbərlik edir və aşağıdakı səlahiyyət və vəzifələri həyata keçirir:

- AzXP tərəfindən qəbul edilmiş qərarların, fəaliyyət planlarının və tapşırıqların icra vəziyyətinə nəzarət etmək;
- Cari fəaliyyət istiqamətləri üzrə operativ koordinasiya həyata keçirmək;
- AzXP-nin ümumi fəaliyyətinin strateji və təşkilati koordinasiyasını təmin etmək;
- Rəyasət Heyəti üzvləri arasında müəyyən edilmiş iş bölgüsünün icrasına nəzarət etmək;
- Verilmiş tapşırıqların vaxtında və keyfiyyətlə yerinə yetirilməsini nəzarətdə saxlamaq;
- Qətnamə, bəyanat və digər siyasi-hüquqi sənədlərin yekun koordinasiyasını həyata keçirmək;
- AzXP-nin hesabatlılıq prinsiplərinə ümumi nəzarəti həyata keçirmək;
- Böhran vəziyyətlərində operativ idarəetmə və koordinasiya tədbirləri görmək;
- AzXP-nin institusional inkişaf konsepsiyasının hazırlanmasına rəhbərlik etmək;
- Alternativ ictimai parlamentçilik modelinin inkişaf etdirilməsi istiqamətində fəaliyyət göstərmək.

## Yekun müddəalar

- Rəyasət Heyəti həftədə ən azı iki dəfə (bazar ertəsi və cümə axşamı) iclas edir.
- Rəyasət Heyəti öz fəaliyyətlərini qarşılıqlı əməkdaşlıq, kollegiallıq, demokratik idarəetmə, şəffaflıq və məsuliyyət prinsipləri əsasında həyata keçirirlər;
- Zəruri hallarda Rəyasət Heyətinin qərarı ilə vəzifə bölgüsünə dəyişiklik və əlavələr edilə bilər;
- Rəyasət Heyətinin üzvləri müəyyən edilmiş istiqamətlər üzrə mütəmadi hesabatlılıq və koordinasiya prinsiplərinə riayət etməlidirlər;
- AzXP-nin bütün struktur və fəaliyyət istiqamətləri təşkilatın demokratik, hüquqi və ictimai missiyasına uyğun şəkildə həyata keçirilir.